| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 03.06.1992 |
| QEYDİYYAT NÖMRƏSİ | 147 |
| ADI | Siyasi partiyalar haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı (Dərc olunma tarixi: 15-06-1992, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 387) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Siyasi partiyalar haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I f ə s i l

**ÜMUMİ MÜDDƏALAR**

M a d d ə 1. **Siyasi partiya anlayışı**[2]

Siyasi partiya Azərbaycan Respublikasının vətəndaşları tərəfindən ölkənin siyasi həyatında, vətəndaşların siyasi iradəsinin formalaşdırılmasında və ifadə olunmasında iştirak etmək niyyəti ilə bu Qanuna uyğun olaraq yaradılmış qeyri-kommersiya hüquqi şəxsidir.

M a d d ə 2. **Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**[3]

Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

II f ə s i l

**SİYASİ PARTİYALARIN YARADILMASI VƏ FƏALİYYƏTİ PRİNSİPLƏRİ**

M a d d ə 3. **Siyasi partiyaların yaradılması və fəaliyyəti: prinsipləri**

Siyasi partiyalar assosiasiyalar azadlığı, könüllülük, üzvlərinin hüquq bərabərliyi, özünüidarə, qanunçuluq və aşkarlıq prinsipləri əsasında yaradılır və fəaliyyət göstərirlər.

Siyasi partiyaların fəaliyyəti onların üzvlərinin Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönələ bilməz.[4]

M a d d ə 4. **Siyasi partiyaların yaradılması şərtləri**

Siyasi partiyalar ərazi əlaməti üzrə qurulur. Dövlət və yerli özünüidarəetmə orqanlarında siyasi partiyaların təşkilatlarının yerləşdirilməsinə yol verilmir.[5]

Siyasi partiyaya üzvlük peşə, irqi, cinsi, etnik və dini əlamətlərə görə məhdudlaşdırıla bilməz.[6]

Siyasi partiyanın qeydə alınması üçün Azərbaycan Respublikasının azı 1000 vətəndaşı onun üzvü olmalıdır.

Məqsədi və ya fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiya quruluşunu və dünyəvi xarakterini zorakılıqla dəyişdirməyə, ərazi bütövlüyünü pozmağa, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etməyə, irqi, milli və dini ədavəti qızışdırmağa yönəlmiş siyasi partiyaların yaradılmasına və fəaliyyətinə yol verilmir.[7]

Azərbaycan Respublikasının ərazisində xarici dövlətlərin siyasi partiyalarının, habelə onların bölmələrinin və təşkilatlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

*Azərbaycan Respublikasının Silahlı Qüvvələrində siyasi partiyaların yaradılması və fəaliyyəti qadağandır.*[8]

M a d d ə 5. **Siyasi partiyaların fəaliyyət formaları**

Partiyalar aşağıdakı yolla siyasi fəaliyyət göstərirlər:

nizamnamələrinə uyğun olaraq ictimai rəyin formalaşmasına təsir göstərmək;

öz üzvlərinin siyasi fəallığına rəvac vermək;

vətəndaşlar arasında siyasi maarifləndirmə işi aparmaq;[9]

seçkili dövlət və yerli özünüidarəetmə orqanlarına namizədlər irəli sürmək;[10]

siyasi partiyanın ictimai məsələlər ilə bağlı rəylərini dövlət və yerli özünüidarəetmə orqanlarına çatdırmaq;

nizamnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətinə təsir göstərmək;

siyasi və sosial proqramlar hazırlamaq yolu ilə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin formalaşmasına təsir göstərmək.

M a d d ə 5-1. **Siyasi partiyanın təsis edilməsi**[11]

5-1.1. Siyasi partiya təsis qurultayının keçirilməsi, həmin qurultayda siyasi partiyanın nizamnaməsinin və proqramının qəbul olunması, rəhbər və nəzarət-təftiş orqanlarının formalaşdırılması yolu ilə təsis edilir.

5-1.2. Siyasi partiyanın təsis qurultayının hazırlanması, çağırılması və keçirilməsi siyasi partiyanın təşəbbüsçülərinin yaratdığı təşkilat komitəsi tərəfindən həyata keçirilir.

5-1.3. Siyasi partiyanın təsis qurultayının keçiriləcəyi yer və tarix barədə məlumat təşkilat komitəsi tərəfindən kütləvi informasiya vasitələrində dərc etdirilir.

5-1.4. Siyasi partiyanın təsis qurultayının keçirilməsi ilə təşkilat komitəsinin fəaliyyətinə xitam verilir.

5-1.5. Təşkilat komitəsinin sərəncamında olan əmlak və pul vəsaiti yaradılmış siyasi partiyanın sərəncamına keçir.

5-1.6. Siyasi partiyanın təsis olunduğu gündən bir ay müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, partiya üzvlərinin sayını təsdiqləyən sənəd əlavə edilməklə, siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün müraciət olunur.

M a d d ə 6. **Siyasi partiyanın nizamnaməsi**

Siyasi partiyanın hər bir şəxsin tanış olmaq imkanı olan nizamnaməsi olmalıdır.

Nizamnamədə aşağıdakılar nəzərdə tutulmalıdır:

siyasi partiyanın adı, adının qısaldılmış forması, məqsədləri və vəzifələri;[12]

siyasi partiyanın strukturu;

siyasi partiyanın üzvlüyünə qəbul olunmağın və ondan çıxmağın şərtləri və qaydası;

siyasi partiyanın üzvlərinin hüquqları və vəzifələri;

siyasi partiyanın üzvləri barəsində Azərbaycan Respublikasının qanunlarına zidd olmayan intizam tədbirləri və bunların tətbiqinin əsasları;

ərazi təşkilatları ilə qarşılıqlı münasibətləri;[13]

siyasi partiyanın rəhbər orqanlarının təşkili qaydası və səlahiyyətləri, onların səlahiyyət müddətləri;[14]

qərarların, o cümlədən siyasi partiyanın ləğvi barədə qərarın qəbul olunması, həyata keçirilməsi qaydası və nəzarət formaları;[15]

partiya üzvlərinin və onların nümayəndələrinin yığıncağının çağırılması şərtləri, formaları və müddətləri;

Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Prezidentinin və yerli özünüidarəetmə orqanlarının seçkiləri zamanı siyasi partiyadan nümayəndələrin irəli sürülməsi qaydası;

siyasi partiyanın orqanlarında iradənin ifadə olunması qaydası;

siyasi partiyanın üzvlərinin siyasi partiyanın rəhbər orqanlarının qərarlarından şikayət etmək qaydası;[16]

siyasi partiyanın vəsaitinin və başqa əmlakının əmələ kəlməsi mənbələri;

siyasi partiyanın nizamnaməsinə dəyişikliklər və əlavələr edilməsi qaydası;

siyasi partiyanın fəaliyyətinə xitam verilməsi qaydası və onun əmlakının taleyi.

M a d d ə 6-1. **Siyasi partiyanın proqramı**[17]

6-1.1. Siyasi partiya məqsəd və vəzifələrini, fəaliyyət prinsiplərini və metodlarını əks etdirən proqrama malik olmalıdır.

6-1.2. Siyasi partiya dövlət qeydiyyatına alınan zaman proqramını və sonradan həmin proqrama edilən hər hansı dəyişikliyi müvafiq icra hakimiyyəti orqanına məlumat üçün təqdim edir.

M a d d ə 7**. Siyasi partiyanın adı**[18]

Siyasi partiyanın adı, adının qısaldılmış forması və rəmzləri Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış digər partiyaların adından və rəmzlərindən fərqlənməlidir.[19]

Siyasi partiyanın adına edilmiş dəyişiklik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınır.[20]

M a d d ə 8. **Siyasi partiyada üzvlük**

Siyasi partiyanın nizamnaməsini və proqramını qəbul etmiş, yetkinlik yaşına çatmış tam fəaliyyət qabiliyyətli Azərbaycan Respublikasının vətəndaşları siyasi partiyaya üzv ola bilərlər. Siyasi partiyalar tərəfindən üzvlərinin qeydiyyatı aparılır.

Heç kəs hər hansı siyasi partiyaya daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.[21]

Bütün səlahiyyəti müddətində Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrləri, sədr müavinləri və hakimləri, Azərbaycan Respublika-sının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), hərbi qulluqçular, köməkçi-texniki heyət istisna olmaqla, prokurorluq, ədliyyə, daxili işlər, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat,* sərhəd xidməti, gömrük, maliyyə, vergi, feldyeger rabitəsi, fövqəladə hallar, miqrasiya orqan-larının, dövlət mətbuatı orqanlarının işçiləri, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım şurasının üzvləri, baş direktoru və onun müavinləri, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvləri, din xadimləri siyasi partiyaların üzvü ola bilməzlər.[22]

Bu maddənin üçüncü hissəsində sadalanan şəxslər bütün seçki, xidmət və ya iş dövründə siyasi partiyalarda üzvlüyünü dayandırırlar.

Siyasi partiyalara daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır.[23]

M a d d ə 9. **Siyasi partiyanın üzvlərinin hüquqları**

Siyasi partiyanın üzvlərinin hüquqları onun nizamnaməsi ilə müəyyən edilir və Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd ola bilməz.[24]

Siyasi partiyanın üzvləri onun rəhbər orqanlarına seçilmək və seçmək, siyasi partiyanın və onun rəhbər orqanlarının fəaliyyəti haqqında məlumat almaq, siyasi partiyanın nizamnaməsində nəzərdə tutulmuş qaydada rəhbər orqanların qərarlarından şikayət etmək və siyasi partiyanın nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malikdirlər.[25]

Vətəndaşın siyasi partiyanın fəaliyyətində iştirakı, bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, onun hüquqlarının məhdudlaşdırılmasına və qanunla müəyyən edilmiş vəzifələrinin icrasından imtinaya əsas ola bilməz. Rəsmi sənədlərdə bu və ya digər siyasi. partiyanın üzvlüyünü göstərməyin tələb edilməsinə yol verilmir.[26]

Partiyanın hər bir üzvü və ya üzvləri qrupu öz iradəsini sərbəst ifadə etmək hüququna malikdir.

M a d d ə 10. **Siyasi partiyanın orqanları**[27]

10.1. Siyasi partiyanın ali rəhbər orqanı siyasi partiyanın beş ildə bir dəfədən az olmayaraq keçirilən qurultayıdır.

10.2. Siyasi partiyanın qurultayı siyasi partiyanın kollegial orqanlarını formalaşdırır.

10.3. Siyasi partiyanın digər rəhbər orqanları, rəhbər orqanlarının təşkili qaydaları və səlahiyyətləri siyasi partiyanın nizamnaməsi ilə müəyyən edilir.

M a d d ə 11. **Siyasi partiyaların beynəlxalq əlaqələri**

Siyasi partiyalar beynəlxalq qeyri-hökumət təşkilatlarına daxil ola bilər, birbaşa beynəlxalq əlaqələr saxlaya, müvafiq sazişlər bağlaya bilərlər.[28]

III f ə s i l

**SİYASİ PARTİYALAR VƏ DÖVLƏT**

M a d d ə 12. **Siyasi partiyanın hüquqları**[29]

12.1. Siyasi partiya aşağıdakı hüquqlara malikdir:

12.1.1. məqsədləri və fəaliyyəti barədə məlumatları sərbəst yaymaq, ideyalarını, məqsədlərini və proqramlarını təbliğ etmək;

12.1.2. könüllülük əsasında birləşib siyasi bloklar, ittifaqlar, federasiyalar, birliklər yaratmaq;

12.1.3. Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Prezidentinin və yerli özünüidarəetmə orqanlarının seçkilərində, habelə ümumxalq səsverməsi - referendumlarda iştirak etmək;

12.1.4. dövlət orqanları tərəfindən normativ hüquqi aktların layihələrinin hazırlanmasına dair təkliflər vermək;

12.1.5. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kütləvi informasiya vasitələri təsis etmək;

12.1.6. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mitinq, nümayiş, yürüş, piket və yığıncaq keçirmək;

12.1.7. bu Qanuna uyğun olaraq ianələr qəbul etmək;

12.1.8. rəmz kimi emblemlərə, bayraqlara, vımpellərə və nişanlara malik olmaq.

12.2. Siyasi partiyanın rəmzləri bu Qanunun 4-cü maddəsinin dördüncü hissəsində göstərilmiş məqsədlərin təbliğinə xidmət etməməlidir.

M a d d ə 12-1. **Siyasi partiyanın vəzifələri**[30]

12-1.1. Siyasi partiyanın aşağıdakı vəzifələri vardır:

12-1.1.1. Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, digər hüquqi aktlara və öz nizamnaməsinə riayət etmək;

12-1.1.2. bu Qanunun 21.2-ci maddəsində nəzərdə tutulmuş maliyyə hesabatını və 21.4-1-ci maddəsində nəzərdə tutulmuş məlumatları və sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim etmək;[31]

12-1.1.3. siyasi partiyanın hüquqi ünvanı və əlaqə telefonları dəyişdikdə, bu barədə məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim etmək;

12-1.1.4. dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinə müdaxilə etməmək.

12-1.2. Siyasi partiyanın rəhbər orqanlarının qərargahı Azərbaycan Respublikasının ərazisində yerləşməlidir.

M a d d ə 13. **Siyasi partiyalarla münasibətlərdə dövlətin hüquq və vəzifələri**

Dövlət siyasi partiyaların hüquqlarına və qanuni mənafelərinə əməl olunmasına, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq onların öz nizamnamə vəzifələrini yerinə yetirmələri, habelə öz sənədlərini dövlət mətbuat orqanları vasitəsilə yaymaları üçün bərabər hüquqi şərait yaradılmasına, partiyaların rəhbər orqanlarının

mühafizəsinə və təhlükəsizliyinə, bu məqsədlə dövlət mühafizə xidmətinin yaradılmasına və onun təchizatının təşkil edilməsinə təminat verir.[32]

Dövlət bu Qanunun 17-1-ci maddəsinə uyğun olaraq dövlət büdcəsindən vəsaitin ayrılması yolu ilə siyasi partiyalara maliyyə yardımı göstərir.[33]

Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanlarının və vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə qarışmasına yol verilmir.[34]

M a d d ə 14. **Siyasi partiyanın dövlət qeydiyyatına alınması.**[35]

14.1. Siyasi partiya "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınır.

14.2. Dövlət qeydiyyatına alınmayan siyasi partiya dövlət qeydiyyatına alınmış siyasi partiya kimi çıxış edə və ya fəaliyyət göstərə bilməz.

M a d d ə 15. **Siyasi partiyalar haqqında qanunvericiliyin pozulması üçün məsuliyyət**[36]

Siyasi partiyalar haqqında qanunvericiliyin pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə cinayət məsuliyyətinə, inzibati, maddi və ya başqa məsuliyyətə səbəb olur.

Siyasi partiyalar siyasi partiyalar haqqında qanunvericiliyi. pozduqda Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar.

Siyasi partiya onun nizamnaməsi ilə müəyyən edilən məqsəd və vəzifələrdən kənara çıxan və ya qüvvədə olan qanunvericiliyə uyğun gəlməyən hərəkətlər etdikdə həmin partiyanın rəhbər orqanına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən yazılı xəbərdarlıq edilə bilər.

Fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılmasına maneçilik törədən siyasi partiyaların fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada dayandırıla bilər.[37]

M a d d ə 16. **Siyasi partiyanın ləğv edilməsi və ya fəaliyyətinin dayandırılması**[38]

16.1. Siyasi partiya siyasi partiyanın qurultayının siyasi partiyanın ləğvi barədə qərarı və ya məhkəmənin qərarı əsasında ləğv edilir.

16.2. Siyasi partiyanın ləğvi barədə siyasi partiyanın qurultayının qərarı siyasi partiyanın nizamnaməsində nəzərdə tutulmuş qaydada qəbul edilir.

16.3. *Bu Qanunun 4-cü maddəsinin dördüncü hissəsi istisna olmaqla, siyasi* partiya Azərbaycan Respublikasının qanunlarının tələblərini pozduqda müvafiq icra hakimiyyəti orqanı tərəfindən siyasi partiyaya əsaslandırılmış yazılı xəbərdarlıq edilir.[39]

16.4. Müvafiq icra hakimiyyəti orqanı siyasi partiyanın qanunla müəyyən edilmiş məsuliyyətə cəlb edilməsi barədə aşağıdakı hallarda məhkəməyə müraciət edir:

16.4.1. siyasi partiya bu Qanunun 4-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hərəkətlərə yol verdikdə;

16.4.2. bu Qanunun 16.3-cü maddəsində nəzərdə tutulmuş xəbərdarlıqda göstərilmiş hallar siyasi partiya tərəfindən aradan qaldırılmadıqda.

*16.4-1. Hərbi və ya fövqəladə vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyanın fəaliyyəti hərbi və ya fövqəladə vəziyyət başa çatanadək dayandırıla bilər.*[40]

16.5. Siyasi partiyanın ləğvi barədə məhkəmə qərarı müvafiq icra hakimiyyəti orqanının ərizəsi əsasında Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq qəbul edilir.

16.6. Siyasi partiya ləğv edildikdə onun kreditorlarının tələbləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən olunmuş qaydada ödənilir.

16.7. Ləğv edilmiş siyasi partiyanın adından çıxış etmək və ya fəaliyyət göstərmək, yaxud onun fəaliyyətinin qanunsuz təşkilində və ya işində iştirak etmək qadağandır.

## IV f ə s i l

## SİYASİ PARTİYALARIN FƏALİYYƏTİNİN MADDİ TƏMİNATI

M a d d ə 17. **Siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi**[41]

17.1. Siyasi partiyaların fəaliyyəti bu Qanuna uyğun olaraq dövlət büdcəsindən ayırmalar və əldə etdikləri digər vəsaitlər hesabına maliyyələşdirilir.

17.2. Siyasi partiyaların aşağıdakılar tərəfindən maliyyələşdirilməsi, o cümlədən aşağıdakılardan ianələr qəbul etməsi qadağandır:

17.2.1. bu Qanunun 17-1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanları və digər dövlət qurumları;

17.2.2. bələdiyyə orqanları və onların tabeliyində olan qurumlar;

17.2.3. xarici dövlətlər və xarici hüquqi şəxslər;

17.2.4. əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;
17.2.5. yetkinlik yaşına çatmamış şəxslər;
17.2.6. soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədinin seriyasını və nömrəsini göstərməyən fiziki şəxslər;
17.2.7. hərbi hissələr;
17.2.8. ictimai birliklər və fondlar, dini qurumlar;
17.2.9. hüquqi şəxslər.

M a d d ə 17-1. **Siyasi partiyalara dövlət büdcəsindən vəsaitin ayrılması**[42]

17-1.1. Siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Həmin vəsait dövlət büdcəsində ayrıca sətirlə göstərilir.

*17-1.2. Yeni çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərin yekunlarına əsasən Azərbaycan Respublikasının Milli Məclisi səlahiyyətli tərkibdə formalaşdırıldığı gündən etibarən bu Qanunun 17-1.1-ci maddəsinə uyğun olaraq ayrılmış vəsait aşağıdakı qaydada bölünür və bu Qanunun 17-1.4-cü maddəsinə uyğun olaraq köçürülür:*

*17-1.2.1. vəsaitin 5 faizi irəli sürdüyü namizədlər Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunmayan siyasi partiyalar arasında qazanılmış səslərin sayına proporsional bölünür;*

*17-1.2.2. vəsaitin 40 faizi Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar arasında bərabər bölünür;*

*17-1.2.3. vəsaitin 50 faizi Azərbaycan Respublikası Milli Məclisinin say tərkibinə (125-ə) bölünür və bunun nəticəsində alınan məbləğ Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalardan seçilmiş deputatların sayına vurulmaqla müəyyən edilmiş məbləğ həmin siyasi partiyalara ayrılır. Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində, həmçinin fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar, habelə digər səbəblərdən Azərbaycan Respublikasının Milli Məclisində siyasi partiyaları təmsil edən deputatların sayı artdıqda və ya azaldıqda bu vəsaitin həmin siyasi partiyalara ayrılması zamanı da bu maddənin birinci cümləsində nəzərdə tutulmuş qayda tətbiq olunur. Bu maddənin birinci cümləsində siyasi partiyalar üçün nəzərdə tutulmuş vəsaitin müvafiq rüb üzrə istifadə olunmamış hissəsi həmin rübün sonunda Azərbaycan Respublikasının Milli Məclisində siyasi partiyaları təmsil edən deputatların sayına uyğun olaraq proporsional qaydada siyasi partiyalara ayrılır;*

*17-1.2.4. vəsaitin 5 faizi Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində, həmçinin fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara bu Qanunun 17-1.2.2-ci maddəsinə əsasən aparılmış bölgü nəticəsində hər bir siyasi partiyanın müvafiq rüb üzrə payına düşən həcmdə ayrılır.*[43]

*17-1.2-1. Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara bu Qanunun 17-1.2.4-cü maddəsinə uyğun olaraq ayrılacaq vəsait həmin seçkilərin yekunları Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təsdiq edildiyi tarixdən sonrakı rübdən hesablanır.*

*17-1.2-2. Fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara deputatların sayına görə ayrılacaq vəsait həmin deputatların:*

*17-1.2-2.1. dövlət qeydiyyatından keçmiş siyasi partiyanın üzvü kimi qeydə alındığı tarixdən sonrakı rübdən və ya;*

*17-1.2-2.2. üzv olduğu siyasi partiyanın dövlət qeydiyyatına alındığı tarixdən sonrakı rübdən hesablanır.*

*17-1.2-3. İl ərzində bu Qanunun 17-1.2.4-cü maddəsinin tətbiqi zamanı vəsait çatışmazlığı yarandıqda həmin çatışmazlıq bu Qanunun 17-1.2.1-ci maddəsinə uyğun olaraq dövlət büdcəsindən siyasi partiyalara ayrılmış vəsait üzrə mövcud olan qənaət hesabına, həmin mənbə kifayət etmədikdə isə dövlət büdcəsindən ayrılan əlavə vəsait hesabına aradan qaldırılır.*

*17-1.2-4. Dövlət büdcəsindən siyasi partiyalara ayrılmış vəsaitin ilin sonuna qənaət olunmuş hissəsi Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar arasında dördüncü rübün sonunda bərabər bölünür.*[44]

17-1.3. Siyasi partiyalar Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş son seçkilərdə siyasi partiyalar bloku tərkibində iştirak etdikdə, dövlət büdcəsindən ayrılan vəsait bu Qanunun 17-1.2-ci maddəsində nəzərdə tutulmuş qaydada hər bir siyasi partiyaya ayrıca verilir.

17-1.4. Bu Qanunun 17-1.1-ci maddəsinə uyğun olaraq dövlət büdcəsindən ayrılan vəsait müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Qanunun 17-1.2-ci, *17-1.2-4-cü* və 17-1.3-cü maddələrinin tələbləri nəzərə alınmaqla, rüblər üzrə bərabər hissələrlə siyasi partiyanın bank hesabına köçürülür.[45]

17-1.5. Siyasi *partiya* dövlət büdcəsindən ayrılan vəsaitdən imtina etdikdə həmin vəsait dövlət büdcəsinə *qaytarılmaqla bu Qanunun 17-1.2-4-cü maddəsinə uyğun olaraq istifadə olunur*.[46]

17-1.6. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Qanuna uyğun olaraq illik maliyyə hesabatını təqdim etməyən siyasi partiyalar qanunla müəyyən edilmiş məsuliyyətə cəlb edilirlər.[47]

M a d d ə 18. **Siyasi partiyaların gəlir və xərcləri**[48]

Siyasi partiyaların pul və ya pul ifadəsi olan sərvətlər şəklində əldə etdikləri vəsait onların gəliridir. Partiyanın hamılıqla qəbul olunmuş öhdəliklərdən azad edilməsi nəticəsində alınan səmərə də gəlir sayılır.[49]

Aşağıdakılar siyasi partiyaların gəlirləri sayılır:[50]

üzvlük haqları;
əmlakdan götürülən gəlir;
tədbirlərdən, mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlirlərlə bağlı olan buna bənzər başqa fəaliyyətdən götürülən gəlir;
ianələr şəklində gəlir;
seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait;
aşağı təşkilatların ödəncləri;
dövlət büdcəsindən ayrılan vəsait;[51]
borcun və ya kreditin alınmasından əldə edilmiş məbləğ;
hüquq varisliyi və ya vərəsəlik yolu ilə əldə edilmiş əmlak;
qalan gəlir.

Aşağıdakılar siyasi partiyanın xərcləri sayılır:[52]
cari işlərə sərf olunan vəsait;[53]
siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər;[54]
ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər;
aşağı təşkilatlara ödənclər;
kreditlər üzrə faizlər;
fərdi xərclər;
qalan xərclər.

Siyasi partiyaların gəlir mənbələrinə, əldə edilən vəsaitin məbləğinə və vergilərin ödənilməsinə vergi qanunvericiliyinə uyğun olaraq dövlət vergi orqanları nəzarət edirlər.[55]

M a d d ə 18-1. **Üzvlük haqqı**[56]

Üzvlük haqqı siyasi partiyanın üzvləri tərəfindən siyasi partiyanın nizamnaməsinə uyğun olaraq pul formasında mütəmadi ödənilən vəsaitdir. Üzvlük haqqının məbləğindən artıq ödənişlər ianə hesab edilir.

M a d d ə 19. **İanələr**[57]

19.1. Siyasi partiyaların ianələr qəbul etmək hüququ vardır.
19.2. Siyasi partiyalar qəbul etdiyi və ya vəd edilən ianə müqabilində, ianə verən şəxsə və ya hər hansı digər şəxsə birbaşa yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt verə, belə təkliflə çıxış edə və ya belə vəd verə bilməz.
19.3. Siyasi partiyaya ianə verən şəxs verdiyi və verəcəyi ianə müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt tələb edə və ya qəbul edə bilməz, belə təklifə və ya vədə razılıq verə bilməz.
19.4. İanə edilən pul vəsaitləri siyasi partiyanın bank hesabına köçürmə yolu ilə qəbul edilir.
19.5. Naturada təqdim edilmiş ianələrin dəyəri bazar qiyməti ilə müəyyən edilir.
19.6. Siyasi partiyaların qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş məlumatlar maliyyə hesabatına daxil edilir.
19.7. Şəxsin bir və ya bir neçə partiyaya il ərzində verdiyi ianələrin yuxarı həddi on min manatdan artıq ola bilməz.[58]

M a d d ə 20. **Siyasi partiyaların mülkiyyəti**[59]

Siyasi partiyaların mülkiyyətində binalar, avadanlıq, nəşriyyatlar, mətbəələr, nəqliyyat vasitələri, habelə nizamnamə vəzifələrini yerinə yetirmək üçün lazım olan digər əmlak ola bilər.
Siyasi partiyaların mülkiyyət hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunur.
Siyasi partiyalar borc və ya icarə barəsində başqa şəxslərlə bağladıqları müqavilələrə uyğun olaraq binalardan və başqa əmlakdan istifadə edə bilərlər.
Siyasi partiyaların mülkiyyətində torpaq, sənaye müəssisələri, istehsal birlikləri və kooperativlər ola bilməz, siyasi partiyalar təsərrüfat və ya kommersiya fəaliyyəti ilə məşğul ola bilməzlər.
Siyasi partiyaların silaha, partlayıcı maddələrə və vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə (o cümlədən ekoloji təhlükə) törədən başqa materiallara malik olması, bunları anbara vurması və ya saxlaması qadağandır.

M a d d ə 21. **Maliyyə hesabatı**[60]

21.1. Siyasi partiyalar bu Qanunla müəyyən edilmiş tələbləri nəzərə almaqla "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotunu aparır və maliyyə hesabatlarını tərtib edirlər.[61]

21.2. Siyasi partiyalar tərəfindən illik maliyyə hesabatları auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilir.[62]

21.3. Üzvlük haqqı ödəyən siyasi partiya üzvlərinin sayı maliyyə hesabatında qeyd edilir.

21.4. Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

21.4-1. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının müraciəti əsasında siyasi partiyalar maliyyə fəaliyyətlərinə dair əlavə məlumatları və sənədləri təqdim edirlər.[63]

21.5. Siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə kütləvi informasiya vasitələrində dərc etdirirlər.

21.6. Siyasi partiyaların illik maliyyə hesabatları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində yerləşdirilir.[64]

M a d d ə 22. **Qanunun pozulmasına görə məsuliyyət**[65]

Bu Qanunun tələblərini pozan şəxslər qanuna uyğun olaraq məsuliyyətə cəlb olunurlar.

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**İ. QƏMBƏROV.**

Bakı şəhəri, 3 iyun 1992-ci il.
147

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 25 iyun 1992-ci il tarixli **184** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Ali Sovetin Məlumatı, 1992-ci il, 12, maddə 454** )
2. 5 noyabr 1996-cı il tarixli **188-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, 3, maddə 226**)
3. 5 may 2001-ci il tarixli **190-IIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, 11, maddə 683**)
4. 2 iyul 2002-ci il tarixli **356-IIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2002-ci il, 08, maddə 463**)
5. 30 dekabr 2003-cü il tarixli **568-IIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, 02, maddə 57**)
6. 4 may 2004-cü il tarixli **646-IIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, 05, maddə 321**)
7. 11 iyul 2004-cü il tarixli **688-IIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, 08, maddə 598**)
8. 4 mart 2005-ci il tarixli **856-IIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, 04, maddə 278**)
9. 15 aprel 2005-ci il tarixli **887-IIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, 06, maddə 464**)
10. 3 mart 2006-cı il tarixli **82-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2006-cı il, 3, maddə 225)**
11. 1 oktyabr 2007-ci il tarixli **424-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, 11, maddə 1049**)
12. 9 oktyabr 2007-ci il tarixli **430-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu ( **Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, 11, maddə 1053**)
13. 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 aprel 2010-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 276)**
14. 20 aprel 2012-ci il tarixli **346-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 may 2012-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 414)**
15. 30 sentyabr 2014-cü il tarixli **1050-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 5 noyabr 2014-cü il, 241; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1332)**
16. 6 mart 2015-ci il tarixli **1229-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 aprel 2015-ci il, 70, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 4, maddə 366)**
17. 7 aprel 2017-ci il tarixli **553-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 may 2017-ci il, 107 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 684 )**
18. 1 may 2018-ci il tarixli **1099-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 iyun 2018-ci il, 141 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1158)**
19. 12 iyun 2018-ci il tarixli **1184-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 iyul 2018-ci il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1406)**
20. 29 iyun 2018-ci il tarixli **1213-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 iyul 2018-ci il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1429)**
21. 28 dekabr 2020-ci il tarixli **232-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 yanvar 2021-ci il, 1 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1443)**
22. 16 dekabr 2022-ci il tarixli **693-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın)**

**rəsmi internet saytı, 11 yanvar 2023-cü il, “Azərbaycan” qəzeti 12 yanvar 2023-cü il, 6 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 25)**

QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 16 dekabr 2022-ci il tarixli **693-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 11 yanvar 2023-cü il, “Azərbaycan” qəzeti 12 yanvar 2023-cü il, 6 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 25)** ilə ləğv edilmişdir.

[2] 20 aprel 2012-ci il tarixli **346-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 414)** ilə 1-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu Qanunda siyasi partiya dedikdə ümumi siyasi ideyaları və məqsədləri olan, ölkənin siyasi həyatında iştirak edən Azərbaycan. Respublikası vətəndaşlarının birlikləri nəzərdə tutulur.~~

~~Siyasi partiyalar Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğun olan vəzifələrini və məqsədlərini əsas götürərək. Azərbaycan Respublikası vətəndaşlarının siyasi iradəsinin formalaşdırılmasında fəal iştirak edirlər.~~

[3] 20 aprel 2012-ci il tarixli **346-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 414)** ilə 2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Maddə 2. **Siyasi partiyaların təşkilinin və fəaliyyətinin qanunvericilik əsasları**~~

~~Siyasi partiyaların təşkilinin və fəaliyyətinin qanunvericilik əsası Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və bunlara uyğun olaraq qəbul edilən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.~~

[4] 20 aprel 2012-ci il tarixli **346-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 414)** ilə 3-cü maddəyə ikinci hissə əlavə edilmişdir.

[5] 20 aprel 2012-ci il tarixli **346-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 414)** ilə 4-cü maddədə birinci hissənin ikinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Siyasi partiyaların ilk təşkilatlarının, komitələrinin və digər təşkilat strukturlarının Azərbaycan Respublikasının dövlət orqanlarında fəaliyyətinə yol verilmir.~~

[6] 20 aprel 2012-ci il tarixli **346-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 414)** ilə 4-cü maddədə ikinci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Siyasi partiya yaradılmasının təşəbbüsçüləri təsis qurultayı (konfransı) və ya ümumi yığıncaq çağırır, orada nizamnamə qəbul olunur və rəhbər orqanlar təşkil edilir.~~

[7] 20 aprel 2012-ci il tarixli **346-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 05, maddə 414)** ilə 4-cü maddədə dördüncü hissə yeni redaksiyada verilmişdir.

